

# ELMİN VƏ NÜFUZUN GÜCÜ

Görkəmli dilçi alim Sayalı Sadıqovanın bu gün 60 yaşı tamam olur. Zəngin və dəyərli bir həyat yaşayan alim üçün əsas yaşam yolu onun yaradıcılığıdır. Çoxlu sayda kitabları, elmi əsərləri xüsusilə aydın və parlaq mövqeyi onu Azərbaycan alimlərinin ön cərgəsinə çıxarır. İrəli sürdüyü mülahizə və tezisləri nəinki elmi tədqiqatlarında, eləcə də şifahi müsahibə və mükalimələrində güclü məntiq və elmi dəlillərlə müdafiə edə bilir.

Ayrı-ayrı vaxtlarda ictimai mühitdə belə fikirlər səslənir: Dili mühafizə sistemi yaradılmalıdır. Ola bilsin ki, bu, işin xeyrinə olardı. Amma Sayalı Sadıqova kimi milli ruhlu dilçilərin apardığı mücadilə olmadan hər hansı inzibati mühafizə sistemi də bir iş görə bilməz.

Onun fəal həyat mövqeyi var. Dilə yad olan təsirlərə qarşı mətanətlə və inadla dura bilir. Təsadüfi deyil ki, çox vaxt belə inadlı müqavimətlər müəyyən mübahisələr də doğurur. Ancaq Sayalı Sadıqova belə mübahisələrdən çəkinmir; öz mövqeyini, əlbəttə, onun timsalında dilin mövqeyini cəsarətlə müdafiə edir.

Alimin mövqeyi nə vaxt təqdir olunur?.. O vaxt ki, alim çıxış elədiyi mövzunu mükəmməlliklə mənimsəmiş olur, bir insan tipi olaraq özü mükəmməl olur. Təbiəti şəxsiyyət bütövlüyünə istinad edir. Onda alimin mövqeyi nüfuz sahibinin mövqeyi kimi qəbul olunur. Sayalı Sadıqova Azərbaycan elminin nüfuzlu simalarından biridir. Bunu onun təkcə çoxsaylı kitabları deyil, çoxsaylı və elmdə xüsusi mərhələlər yaratmış alimlər tərəfindən təqdir olunması da təsdiqləyir.

60 yaşlı alimin bugünkü məhsuldar əməyi, geniş və əhatəli yaradıcılığı dilimiz - varlığımız istiqamətində uğurlu nailiyyətdir. Onun doğma dilə sevgisi elmə yeni gələn milli ruhlu gənclər üçün qürur mənbəyidir. "Kredo"nun bu sayında görkəmli alimlərin onun haqqında yazdıqları elmi-publisistik düşüncələr də qənaətlərimizin doğruluğunu bəyan edir.

Sayalı xanım adlarımızın keşiyində analıq missiyası ilə dayanır. Adlar insanın kimliyinin ilkin təqdimatıdır.

Sayalı adının uğur mənası var. Cəmiyyətdə adına güvənclə yaşamaq şəxsiyyətin özünütəstiqidir.

*Əli Rza XƏLƏFLİ*

*21.06.2020*

Kredo.-2020.-22 iyun.-S.1.